# 707 media, 6200 jurnalist və 279 QHT

## USAID-in indiyədək həyata keçirdiyi çirkin layihələrin ifşası dəhşətli faktları ortaya çıxarır

**ABŞ Prezidenti Donald Trampın qərarı ilə Beynəlxalq İnkişaf Agentliyinin (USAID) fəaliyyətinin fevralın 1-dən etibarən dayandırılması, bir çox qaranlıq məqamların üzərinə işıq salıb. Bir həftədir ki, USAID-in dünyanın müxtəlif ölkələrində həyata keçirdiyi çirkin oyunları, məkrli planları faktlar əsasında ortaya qoyulur və həqiqətlər dəhşətli məqamları üzə çıxarır.**

Son məlumatlara görə, USAID dünya üzrə 707 media, 6200 jurnalist və 279 jurnalistika sahəsində çalışan QHT maliyyələşdirib. Buradan da aydın olur ki, Azərbaycanda 2012-ci ildə "Eurovision" mahnı müsabiqəsindən başlayaraq bu günə kimi, həmçinin müharibə vaxtı, Laçın yolunda ekoloqların aksiyaları, COP29 dövründə beynəlxalq mediada aparılan çirkin kampaniyanın arxasında kim dururmuş.

Aparılan araşdırmaların hələ hansı biabırçılıqları üzə çıxaracağını indidən demək çətin olsa da, Bayden administrasiyası və Samanta Pauerin rəhbərlik etdiyi dövrün bu təşkilatın fəaliyyət tarixində ən biabırçı dövr olacağına şübhə yeri qalmır.

Ümumiyyətlə, USAID-in bağlanması Azərbaycanda və Gürcüstanda da nikbinliklə qarşılanır. Təbii ki, bu da təsadüfi deyil. Çünki bu riyakar təşkilat hər iki ölkədə qarşıdurmaların baş verməsinə çalışıb, bunun üçün pullar ayırıb, dönük insanları özünə cəlb edə bilib. Cənubi Qafqazda çirkin məqsədlərini həyata keçirmək üçün USAID bütün vasitələrə əl atıb.

Azərbaycan Prezidenti cənab İlham Əliyev hələ bir neçə ay bundan əvvəl bu təşkilatın yaramaz fəaliyyətini diqqətə çatdıraraq, onun məkrli məqsədlərə xidmət etdiyini göstərmişdir.

ABŞ Dövlət katibi Marko Rubio hazırda agentliyin administratoru vəzifəsini icra etdiyini açıqlayıb. O bildirib ki, Vaşinqtonda USAID-in mənzil-qərargahı bağlıdır, işçilərə elektron poçt vasitələri ilə evdə qalmalarına dair tapşırıq gəlib.

Bundan bir qədər əvvəl isə Tramp USAID rəhbərliyinin radikal dəlilərdən ibarət olduğunu və ABŞ-nin onlardan qurtulacağını bildirmişdi.

ABŞ-nin Hökumətin Effektivliyi Departamentinə rəhbərlik edən İlon Mask isə USAID-i COVID-19-un patogenləri də daxil olmaqla bioloji silahların hazırlanmasını maliyyələşdirməkdə ittiham edib. Mask USAID-i "cinayətkar təşkilat" adlandırıb.

Beynəlxalq İnkişaf Agentliyinin Administratoru vəzifəsinə Samanta Paueri təyin etmişdi. Hansı ki, Tramp andiçmə mərasimindən dərhal sonra onu bu vəzifədən uzaqlaşdırıb. Samanta Pauer cinayətkar Ruben Vardanyanla da əməkdaşlıq edib. Pauer vaxtilə Vardanyandan Avrora Mükafatının Seçki Komitəsinin daimi üzvü kimi, xeyli məbləğdə pul da alıb. Bu fonda Samanta Pauerin sonradan formalaşan ermənipərəst mövqeyinin, onların daimi dəstəkçisi olma səbəbi aydın olur.

Xatırladaq ki, bu yaxınlarda ABŞ-nin ermənipərəst senatoru Bob Menendez həbs edildi. Senatorun evinə baxış zamanı külli miqdarda nağd pul, dəbdəbəli avtomobillər və qızıl külçələr aşkar edilib. Hansı ki, bu şəxs erməni diasporundan aldığı külli miqdarda pullara görə Azərbaycana qarşı kəskin və qərəzli mövqe tuturdu. Samanta Pauerlə bağlı məsələ də bununla oxşarlıq təşkil edir. Samanta Pauerin rus casus Vardanyanla bu qədər yaxın əlaqəsi ağla başqa şübhələr də gətirir.

Digər mühüm məqam isə ondan ibarətdir ki, USAID korrupsiyada, yəni ehtiyacı olan ölkələrə və icmalara yardım proqramına yönəldilməli olan vəsaitlərin oğurlanmasında ittiham olunur.

Bütün fəaliyyəti dövründə USAID Azərbaycanda layihələrin maliyyələşdirilməsinə 450 milyon dollar xərcləyib. Həmin vəsaitin böyük bir hissəsi isə məhz ölkəmizdə təxribatların hazırlanmasına yönəlib. 50 milyard dollardan çox büdcəsi olan bu təşkilatın büdcəni nəyə xərclədiyi ilə bağlı ciddi şübhələr yaranıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***




Azərbaycan.- 2025.- 8 fevral (№28).- S.8.